# Məhkəmə-hüquq islahatlarının yeni mərhələsi

**Ötən il yaranmasının 100 illiyini geniş və təntənəli şəkildə qeyd etdiyimiz Azərbaycan ədliyyəsi sovetlər dövründə çətin və keşməkeşli bir mərhələ keçərək əsil təşəkkül və inkişaf yoluna dövlət müstəqilliyimiz bərpa olunduqdan sonra qədəm qoymuşdur. Ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi ilə hüquqi dövlət quruculuğu çərçivəsində köklü məhkəmə-hüquq islahatları başlanılmış, onun siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq bu proses daha geniş vüsət almışdır.**

### *Müstəqillik illərində*

müasir tələblərə cavab verən ədliyyə və məhkəmə sisteminin yaradılması və inkişafı sahəsində görülən işlərə, qazanılan uğurlara nəzər saldıqca, bir daha əmin olursan ki, ölkəmiz qısa müddət ərzində həyata keçirilmiş köklü və mütərəqqi islahatlar nəticəsində demokratik dəyərlərə və ədalət prinsiplərinə sadiqliyin real nümunəsinə çevrilmişdir. Belə ki, ulu öndərimiz Heydər Əliyev tərəfindən Ədliyyə Nazirliyinin inkişafı, hüquqi dövlətdə onun layiq olduğu yeri tutması üçün mühüm addımlar atılmış, funksiyaları genişlənmişdir. Eyni zamanda, ədalət mühakiməsi yenidən qurularaq, üçpilləli məhkəmə sistemi yaradılmış, mütərəqqi qanunlar qəbul edilmiş, ölkəmizdə ilk dəfə olaraq hakimlərin seçkisi test və şifahi söhbət yolu ilə keçirilmişdir. Hakim korpusunun tərkibi əsasən təzələnmişdir. Məhkəmə-hüquq islahatları ardıcıl davam etdirilərək, hakimlərin intizam məsuliyyəti gücləndirilmiş, həmçinin onların sosial problemlərinin həlli, iş şəraitinin yaxşılaşdırılması, məhkəmələrin maddi-texniki bazasının müasir tələblərə uyğun möhkəmləndirilməsi üzrə mühüm addımlar atılmışdır.

Ulu öndər Heydər Əliyevin dövlət quruculuğu xəttini uğurla davam və inkişaf etdirən hörmətli Prezidentimiz cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq Ədliyyə Nazirliyi və bütövlükdə ölkəmizin məhkəmə-hüquq sistemində əsaslı islahatlar aparılmış, bu mühüm sahədə fəaliyyətin təkmilləşdirilməsi, ədliyyə orqanlarının inkişafı, ədalət mühakiməsinin səmərəliliyinin artırılması, məhkəmə sisteminin müasirləşdirilməsi üzrə genişmiqyaslı tədbirlər həyata keçirilmişdir.

Görülən işlərin nəticəsidir ki, Azərbaycanın bu sahədə qazandığı nailiyyətlər istər ölkə daxilində, istərsə də beynəlxalq aləmdə yüksək dəyərləndirilir. Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə komissiyası (CEPEJ) ölkəmizdə hakimlərin seçim prosedurunu Avropada örnək kimi dəyərləndirmiş, Avropa İttifaqı tərəfindən həyata keçirilən Şərq tərəfdaşlığı ölkələrində məhkəmə islahatlarının gücləndirilməsi layihəsi üzrə hesabatda da bu seçim nümunə kimi qiymətləndirilərək digər üzv-dövlətlərə tövsiyə edilmişdir.

Dünya Bankı da Azərbaycanda ədliyyə sahəsindəki layihələri ən uğurlu layihələrindən biri kimi qiymətləndirmiş və ”Vətəndaşlara yüksək səviyyəli xidmətlərin göstərilməsi məqsədi ilə müasir infrastrukturun yaradılması” nominasiyasının qalibi elan etmişdir.

### *İki il əvvəl*

isə ölkəmiz məhkəmə sistemindəki nailiyyətlərinə görə Avropa Şurası tərəfindən ”Ədliyyənin kristal tərəzisi” müsabiqəsinin mükafatçısı olub.

2005-ci ildən etibarən iki ildən bir keçirilən bu müsabiqədə ədliyyə və məhkəmə sistemlərinin fəaliyyəti ilə bağlı Avropa Şurasının üzv dövlətləri tərəfindən təqdim olunan layihələr sırasından dörd ən qabaqcıl və səmərəli təcrübə seçilərək mükafatlandırılır. 2017-ci ildə keçirilmiş müsabiqədə Azərbaycan Məhkəmə-Hüquq Şurasının təqdim etdiyi ”Elektron məhkəmə” informasiya sisteminin tərkib hissəsi olan ”Məhkəmənin Nəbzi: İdarəetmədə İnqilab” adlı layihə ilə iştirak edib və bu layihə Avropa ekspertləri tərəfindən məhkəmə sistemində elektron idarəetmənin tətbiqi baxımından ən mütərəqqi layihə kimi qiymətləndirilərək mükafata layiq görülüb.

**Ötən ilin dekabrında Avropa Şurasının Ədalət mühakiməsinin səmərəliliyi üzrə komissiyasının (CEPEJ) Strasburqda keçirilən növbəti Plenar iclasında qurumun rəhbər heyətinin seçkiləri keçirilib. Məhkəmə islahatları sahəsində mütərəqqi nailiyyətləri-miz, habelə ölkəmizin Komissiyanın işində fəal iştirakı, səmərəli təmsilçiliyi və verdiyi dəyərli töhfələr nəzərə alınaraq, seçkilər nəticəsində Azərbaycanın nümayəndəsi - Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin hakimi Ramin Qurbanov CEPEJ-in prezidenti seçilib. Azərbaycan Respublikasının 50-dən çox dövlətin məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə köməklik edən və ədliyyə fəaliyyətinin səmərəliliyinin artırılmasına əhəmiyyətli töhfələr verən CEPEJ-in prezidenti kimi yüksək səviyyədə təmsil olunması dövlətimizin beynəlxalq aləmdə artan nüfuzunun daha bir əyani təzahürüdür.**

Maraqlıdır ki, ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının mütərəqqi xarakterini və müsbət nəticələrini görən nüfuzlu beynəlxalq təşkilatlar bu islahatları yalnız alqışlamaqla kifayətlənmirlər. Onlar Azərbaycanın ədliyyə və məhkəmə sistemindəki tədbirlərə dəstək verir, konkret layihələrdə yaxından iştirak edirlər. Bu sahədə Avropa Komissiyası ilə birgə ”Ədliyyə sahəsində islahatlara dəstək” proqramının və Dünya Bankı ilə birgə



”Ədliyyə sisteminin müasirləşdirilməsi” layihəsinin uğurla həyata keçirilməsi ədliyyə və məhkəmə orqanlarının fəaliyyətinin müasirləşdirilməsi, qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi üzrə işlərə, ən əsası isə, vətəndaşların bu orqanlara müraciət imkanlarının asanlaşdırılmasına, insan hüquq və azadlıqlarının daha etibarlı şəkildə təmin olunmasına böyük töhfələr verir. Son illərdə həmin layihələr çərçivəsində Bakıda və bölgələrdə 16 məhkəmə üçün yeni, müasir binalar və komplekslər tikilərək istifadəyə verilib və hazırda digər belə binaların inşası aparılır.

### *Xüsusilə regionlarda*

**yaşayan əhalinin hüquq və mənafeyinin etibarlı qorunmasını təmin etmək məqsədilə ədalət mühakiməsinin çatımlılığı üzrə göstəricilər nəzərə alınaraq son illər ərzində Azərbaycanda geniş regional məhkəmə şəbəkəsi, o cümlədən vahid apelyasiya məhkəməsini əvəz edən regional apelyasiya məhkəmələri, həmçinin ağır cinayətlər, inzibati-iqtisadi, hərbi məhkəmələr təsis edilmişdir.**

Ölkə Prezidentinin 2014-cü il 13 fevral tarixli Sərəncamı ilə təsbit edilmiş ”Elektron məhkəmə” informasiya sisteminin yaradılması üzrə Dünya Bankı ilə birgə əsaslı işlər görülür, o cümlədən müasir İKT ilə təchiz edilmiş yeni binalarda elektron məhkəmə sisteminin bir çox komponentləri tətbiq olunur, məhkəmə sisteminin vahid internet portalı zənginləşdirilib, burada elektron ”şəxsi kabinet” yaradılıb, məhkəmə rüsumlarının elektron qaydada ödənilməsi, proseslərinin audio-video qeydə alınması, elektron sənəd dövriyyəsi təmin olunub və elektron icranın tətbiqinə başlanılıb.

### *Ədalət mühakiməsinin*

səmərəliliyinin artırılmasını və insan hüquqlarının daha etibarlı müdafiəsinin təmin edilməsini daim diqqət mərkəzində saxlayan möhtərəm Prezidenrimiz cənab İlham Əliyevin bu il aprelin 3-də imzaladığı ”Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” Fərman isə Azərbaycanda məhkəmə-hüquq islahatlarının yeni mərhələdə müasir çağırışlara uyğun və sistemli həyata keçirilməsinə rəvac verib.

Ədliyyə və məhkəmə sistemi üçün mühüm ”yol xəritəsi” olan Fərmanda əksini tapmış əhalinin, xüsusilə ölkənin iqtisadi inkişafında mühüm rol oynayan sahibkarların məhkəməyə müraciət imkanlarının asanlaşdırılması məqsədilə yeni kommersiya məhkəmələrinin təşkili, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması barədə işlərin davam etdirilməsi, hakimlərin və məhkəmə işçilərinin sosial müdafiəsinin gücləndirilməsi, eyni zamanda onların məsuliyyət hissinin artırılması, məhkəmə ekspertizasının və məhkəmə qərarlarının icrasının səmərəliliyinin artırılması, bu sahələrdə alternativ mexanizmlərin yaradılması, məhkəmələrin infrastrukturu və təchizatının yaxşılaşdırılması, ”Elektron məhkəmə” informasiya sisteminin tətbiqi, habelə hakim ştatlarının sayının 200 vahid artırılması ilə bağlı tövsiyə və tapşırıqlar ölkəmizdə məhkəmə sisteminin inkişafına yeni təkan vermişdir.

### *Fərmanın icrası*

**ilə bağlı Ədliyyə Nazirliyi və Məhkəmə-Hüquq Şurası, digər aidiyyəti qurumlar tərəfindən böyük işlər görülür. Fərmanın müstəsna əhəmiyyəti barədə ardıcıl maarifləndirmə tədbirləri, ictimai müzakirələr aparılır. Yeni qanunların işlənib hazırlanması və qəbulu, mövcud qanunvericilikdə müvafiq dəyişikliklərin edilməsi üzrə zəruri addımlar atılır. Artıq bir neçə qanun layihələri paketi parlamentdə müzakirə olunaraq qəbul edilib və bu iş davam etdirilir. Hakimlərin və məhkəmə aparatı işçilərinin əmək haqqları əhəmiyyətli dərəcədə artırılıb. Gələn il yanvar ayının 1-dən fəaliyyətə başlayacaq yeni yaradılan regional kommersiya məhkəmələrinin, eləcə də ayrıca inzibati məhkəmələrin müvafiq bina, avadanlıq, digər təşkilati-texniki vasitələrlə təmin edilməsi, məhkəmə aparatlarının formalaşdırılması üzrə tədbirlər görülür. Eyni zamanda, Məhkəmə-Hüquq Şurası tərəfindən hakimlərin fəaliyyətinin qiymətləndirilməsi, icra intizamının möhkəmləndirilməsi, qanun pozuntusu, süründürməçilik və digər mənfi halların aradan qaldırılması üzrə ardıcıl tədbirlər görülür.**

Möhtərəm Prezident cənab İlham Əliyevin təşəbbüsləri və rəhbərliyi ilə Azərbaycanda məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi üzrə görülən genişmiqyaslı tədbirlər, şübhəsiz ki, ölkəmizdə vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin daha etibarlı təmin olunmasına, ədalət mühakiməsinə ictimai etimadın yüksəlməsinə, məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsinə, məhkəmə qərarlarının ədalətliliyinin və vaxtında tam icrasının təmin olunmasına, şəffaflığın artırılmasına, hakimlərin iş yükünün azalmasına, işlərə baxılmasının keyfiyyətinin yüksəlməsinə, əhaliyə daha çevik, asan və alternativ xidmətlərin göstərilməsinə imkan yaradacaq. Bu da öz növbəsində, dövlətimizin demokratik imicinin möhkəmlənməsinə xidmət edir.

Bütün bunlar qarşıda duran vəzifələrimizin daha yüksək səviyyədə və keyfiyyətlə yerinə yetirilməsi üzrə məsuliyyətimizi artırır.

**Bu əziz bayram münasibətilə bütün ədliyyə işçilərini təbrik edərək, şərəfli və məsuliyyətli işlərində onlara uğurlar arzulayıram.**

***Xəqani Tağıyev,***
**Quba Rayon Məhkəməsinin sədri**